UOT: 360.1

# AQRAR SEKTORUN EMAL VƏ TİCARƏT MÜƏSSİSƏLƏRİNDƏ SEQMENT UÇOTUNUN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**A.Ə.ADIGÖZƏLOVA**
**Azərbaycan Kooperasiya Universiteti**

*Məqalədə aqrar sektorun emal və ticarət müəssisələrində seqment uçotunun təşkilinin bir sıra xüsusiyyətləri haqqında bəhs edilir. Burada aqrar sektorun ayrı-ayrı sahələrinə uyğun əməliyyat və coğrafi seqmentlərin müəyyən edilməsi məsələləri, seqment uçotunun təşkil edilməsi və seqmentar maliyyə hesabatının istifadə edilməsi nəticəsində gəlirliliyin yüksəlməsi və xərclərə qənaət edilməsi mənbələrinin aşkar edilməsi hesabına müəssisənin daxili təsərrüfat strukturları arasında resursların optimal bölüşdürülməsinə və ümumilikdə müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə nail olmağın mümkünlüyü göstərilir.*

***Açar sözlər:*** *aqrar sektor, emal müəssisələri, ticarət müəssisələri, seqment uçotu, seqment hesabatı, əməliyyat seqmenti,coğrafi seqment, səmərəlilik*

İqtisadiyyatın müxtəlif sahələrinə aid olan müəssisə və təşkilatlarda seqment uçotunun təşkil edilməsi onların daxili təsərrüfat subyektlərinin gəlirləri və xərclərinin formalaşması proseslərinin optimal idarə edilməsinə, bununla da təsərrüfat fəaliyyəti prosesindən alınan gəlirlərin artırılmasına, xərclərin ixtisar edilməsinə və ümumilikdə müəssisənin maliyyə nəticələrinin yaxşılaşdırılmasına, rentabelliyin daha da yüksəldilməsinə xidmət edir. Aqrar sektorun emal və ticarət müəssisələrində təsərrüfatdaxili seqmentlərin müəyyən edilməsi və seqment uçotunun qurulması bir sıra özünəməsus xüsusiyyətlərə malikdir.

***Aqrar sektorun emal və ticarət müəssisələrində seqment uçotunun qurulması şəraitinin araşdırılması***

Məlumdur ki, seqment müəssisənin gəlirləri və xərcləri ayrıca hesablanıla bilən qeyri-əlahiddə daxili təşkilat quruluşudur. Aqrar sektorun emal və ticarət müəssisələrində seqmentlər həm əməliyyat, həm də coğrafi əlamətlər üzrə müəyyən edilə bilər. Əməliyyat seqmentləri müəssisənin təsərrüfat fəaliyyətinin xüsusiyyətləri üzrə biri digərindən fərqlənən fəaliyyət növləri kimi qəbul edilə bilər. Coğrafi seqmentlər isə müəssisənin müxtəlif coğrafi məkanlarda yerləşən hissələri üzrə, ayrı-ayrı ərazilərdə göstərilən təsərrüfat fəaliyyəti üzrə təşkil edilə bilər [1].

Aqrar sektorun emal müəssisələrində seqmentlər ayrı-ayrı məhsul növləri üzrə istehsal sahələri, ayrı-ayrı sexlər, ayrı-ayrı maddi-məsul şəxslərin öhdəsində olan istehsalat qurğuları və digər bu kimi emal sənayesi qurumları ola bilər. Aqrar sektorun tərkibində bir çox ticarət müəssisələri də fəaliyyət göstərir. Belə ticarət müəssisələri kənd təsərrüfatı məhsullarının, həmçinin aqrar emal müəssisələrinin istehsalı olan ərzaq məhsullarının satışı ilə məşğul olurlar. Bir çox hallarda aqrar sektorun emal müəssisələri özlərinin istehsal etmiş olduqları məhsulların topdan və pərakəndə satışı ilə də məşğul olur və bu halda belə müəssisələrin bilavasitə tabeçiliyində ticarət obyektləri də mövcud olur. Buna misal olaraq, Bakıda və ölkəmizin digər iri şəhərlərində ticarət müəssisələrinə, eləcə də orta və kiçik həcmli ticarət obyektlərinə malik olan İsmayıllı rayonunun İvanovka kəndində yerləşən Nikolay Vasilyeviç Nikitin adına kolxozu göstərmək olar. Bu kolxozun İvanovka kəndində yerləşən aqrar emal müəssisələrində istehsal olunmuş ərzaq məhsulları ölkəmizin iri şəhərlərində yerləşən ticarət obyektləri tərəfindən əhaliyə satılır. Belə ticarət obyektləri kolxozda istehsal olunmuş məhsulların satışı sahəsində mövcud olan bir sıra problemlərin həllində mühüm rol oynayır.

Qeyd edək ki, İvanovka kəndi Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında, şimal-qərbdə maili şəkildə yerləşir. Kəndin əsası 1847-ci ildə xristian İvan Perşin tərəfindən qoyulmuşdur [5]. İlk sakinləri Çar hökuməti tərəfindən Qafqaza sürgün edilmiş molokanlar olub. Onlar xaçpərəst olmadıqları üçün, xaça inanmadıqları üçün Çariça II Yekaterinanın əmri ilə Qafqaza sürgün edilmişdirlər. Molokanlar bir tək Allahın varlığına inanırdılar. Onlar Azərbaycanın gözəl təbiətə və mülayim iqlimə malik olan dağətəyi relyefə malik ərazidə məskunlaşdıqdan sonra çox böyük əziyyət və çətinliklərlə yeni həyatlarını qurdular və qısa zaman ərzində ətraf yaşayış məntəqələrində yerli əhali olaraq yaşayan azərbaycanlılarla dostluq əlaqələri yaratdılar.

Burada İvanovka kəndinin yaranması ilə bağlı olan maraqlı bir faktı da qeyd etməyi məqsədəuyğun hesab edirik. Bu yerlərə Çar üsul-idarəsinin təqiblərindən yaxa qurtarmaq üçün birinci gələn İvan Perşin adlı şəxs olub. 1834-cü ildə 11 ailə ilə birgə İsmayıllı Topçu kəndi yaxınlığındakı Ax-ox çayının sahilində məskunlaşan molokanlar Rusiyanın soyuq iqlimindən sonra bu rütubətli

mühitə uyğunlaşa bilmirlər. Ona görə də 1847-ci ildə onlar rütubətin olmadığı və qışın nisbətən soyuq keçdiyi bir qədər yüksək yerə köçməyi qərara alırlar. Beləliklə, dini əqidəsinə görə Rusiyadan sürgün olunmuş molokanlar indiki İvanovka kəndinin yerləşdiyi ərazidə məskən salırlar. Görünür ki, onlar 1834-cü ildən 1847-ci ilədək 13 illik dövr ərzində Burada məskunlaşan əhali bu kəndi İvan Perşinin xatirəsinə İvanovka adlandırıblar [4;]. Görünür ki, onlar 1834-cü ildən 1847-ci ilədək keçən 13 illik dövr ərzində ətraf əraziləri diqqətlə öyrənmiş və buranı bəyənərək, özlərinə məskən seçmişdirlər.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1930-cu ildə ölkənin başqa yerlərində olduğu kimi, İvanovka kəndində də kolxoz quruldu. 1957-ci ilədək həmin kolxoz Voroşilovun adını daşımışdır. 1953-cü ildə Nikolay Vasilyeviç Nikitin Voroşilov adına kolxozun sədri seçildi. 1957-ci ildə İvanovka kəndinin Voroşilov adına kolxozu Külüllü kəndinin Kalinin adına kolxozu ilə birləşdirildi və birləşmiş yeni kolxoz Kalinin adına kolxoz oldu, kolxozun sədri isə yenidən N.V.Nikitin seçildi. O, 1994-cü ilədək, yəni 41 il İsmayıllı rayonunun Kalinin adına kolxozunu idarə etmiş və bu dövr ərzində İvanovka kəndini yüksək səviyyədə inkişaf etdirərək, kənd sakinlərinin həyat səviyyəsinin yüksək səviyyəyə qaldırılmasına nail olmuşdur. N.V.Nikitin Ümumilli Lider Heydər Əliyevlə çox yaxın dost olmuşdur. 24 iyul 1981-ci ildə Ümummilli Lider Heydər Əliyev İvanovka kəndinə gəlmiş, burada kənd təsərrüfatı seminarı keçirmiş və kolxoza mükafat təqdim edərkən demişdir: "İvanovkada həyat şəraiti gözəldir. Şəhərin həyat şəraitinə inamla yaxınlaşır. . Kalinin kolxozunun nailiyyətləri respublika miqyasında nümunədir"[3]. Ümummilli lider Heydər Əliyevin respublikamıza ilk dəfə rəhbərlik etdiyi illərdə Kalinin adına kolxoz daha da inkişaf etmiş, əldə etdiyi rekord göstəricilərinə görə respublika təsərrüfatlarının flaqmanı sayılmışdır. Bir fakta diqqət etmək lazımdır: SSRİ-nin dağıldığı ərəfədə kolxozun Azərbaycan Aqrar-Sənaye Bankının İsmayıllı rayon filialındakı cari hesabında 12 milyon ABŞ dolları məbləğində pul vəsaiti var idi [3].

İvanovka kəndinin müasir həyatı ilə bağlı olan bir məsələni də qeyd etmək yerinə düşər. SSRİ-nin dağılması və Azərbaycanın müstəqilliyinin bərpa edilməsi İvanovka kəndinin və oradakı Kalinin adına kolxozun tarixində dönüş nöqtəsi oldu. 1990-cı illərin əvvəllərində bütün respublika ağır günlər yaşayırdı. Çox narahat bir dövr idi. Paytaxtda və rayon mərkəzlərində mitinqlər keçirilir, Dağlıq Qarabağda müharibə gedirdi. Hakimiyyət Xalq Cəbhəsinin əlində idi. Belə bir vəziyyətdə ivanovkalılar Azərbaycandan köçüb getmək istədilər. Sakinlərin bir hissəsi, 60 ailə köçüb getdi. Kənd sakinləri təlaş içərisində idi. Hamı köçüb getmək barədə düşünürdü. Belə bir vəziyyətə kolxozun sədri N.V.Nikitin son qoydu. Kəndin bütün əhalisi tərəfindən şübhəsiz lider kimi qəbul edilən N.V.Nikitin sərt şəkildə dedi: "Özfəaliyyət yetər, hamımız birlikdə köçəcəyik". O, yeni İvanovkaya münasib yer axtarmaq üçün Rusiyanın hər yerinə öz elçilərini göndərdi. Stavropol vilayərində, Krasnodar diyarında, Rostov vilayətində İvanovka üçün yer tapılmadı. Tambov, Voronej və Saratovda şərtlər münasib deyildi. Nəhayət, Belqorod vilayəti barədə düşünməyə başladılar. İdarə heyəti toplandı və rəhbər işçilərdən biri məruzə etdi: ev tikmək və əkin üçün nə qədər ərazi ayrılacaq, su hansı dərinlikdə yerləşir, nə qədər yağıntı düşür və digər bu kimi məlumatlar heyət üzvlərinin nəzərinə çatdırıldı. Sədr idarə heyətinin bütün üzvlərini çox diqqətlə dinlədi və dedi: "Siyasətçilərin proqnozlarına görə, tezliklə hakimiyyətə Heydər Əliyev gələcək. Deməli, köçməyə də ehtiyac yoxdur". Çox keçmədi ki, onun dedikləri həqiqətə çevrildi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının təkidli tələbi ilə hakimiyyətə gəldi, bunun da nəticəsində İvanovka kəndi Azərbaycandan köçmək fikrindən əl çəkdi və öz yerində qaldı [5].

İvanovka kəndinin inkişafı hazırki dövrdə də ölkə rəhbərliyinin diqqətindədir. Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci ildə və 2009-cu ildə İvanovka kəndinə gəlmiş, kəndin inkişafı və kənd əhalisinin sosial-iqtisadi və mədəni həyatı ilə yaxından tanış olmuşdur [2]. Hal-hazırda İsmayıllı rayonunun İvanovka kəndi Azərbaycanda qeyri-aborogen millətlərdən olan azsaylı xalqların multikultural inkişafının bariz nümunəsidir.

1996-cı ilədək İvanovka kəndi ilə Külüllü kəndinin birgə Kalinin adına kolxozu mövcud olmuşdur. 1996-cı ildə Azərbaycanda yeni torpaq islahatlarının aparılması prosesində Külüllü kəndinin torpaqları kənd sakinləri arasında bölüşdürüldü və hər bir kəndli ailəsi öz pay torpağına sahib oldu. Lakin İvanovka kəndinin sakinləri öz torpaqlatını və kolxozun digər əmlakını öz aralarında bölüşdürməyə razı olmadılar və İvanovka kəndində kolxoz təsərrüfatı formasını qoruyub saxladılar.

Hal-hazırki dövrdə Külüllü kəndində 38 kəndli-fermer təsərrüfatı mövcuddur, əhalinin sayı isə 203 nəfər təşkil edir [2]. Göründüyü kimi, İvanovka kəndi ilə müqayisədə Külüllü kəndi çox kiçik yaşayış məntəqəsidir.

İvanovka kəndində isə həyat yüksək templə inkişaf edir. Kənddə hal-hazırda 822 təsərrüfat mövcuddur, əhalinin sayı isə 2720 nəfər təşkil edir [2]. Kənddə aqrar sektorun istehsal və emal sənayesinə xas olan istehsal müəssisələri (taxıl məhsulları istehsal edən 2 dəyirman, günəbaxan yağı istehsal edən zavod, süd məhsullarının istehsalı üçün sex, asfalt və kərpic istehsal edən zavod, kirəmid və əhəng istehsal edən sexlər), eləcə də ticarət sferasına aid 1 ticarət mərkəzi, 3 mağaza və 1 yeməkxana vardır. Bunlarla yanaşı, sosial-mədəni təyinatlı çoxsaylı binalar (780

nəfərlik müasir məktəb binası, 700 yerlik mədəniyyət sarayı, rabitə evi, elektron ATS, telestansiya, 2 uşaq bağçası, xəstəxana binası və s.), kolxoz idarə heyətinin inzibati binası, maşın-traktor parkı, yanacaqdoldurma məntəqəsi, heyvandarlıq kompleksi, anbar binaları fəaliyyət göstərir [2; 3].

***Aqrar sektorun emal və ticarət müəssisələrində seqmentlərin müəyyən edilməsi xüsusiyyətləri***

İsmayıllı rayonunun İvanovka kəndinə məxsus olan aqrar infrastruktur elementlərinin öyrənilməsi əsasında qeyd etmək olar ki, burada aqrar sektorun emal və ticarət müəssisələrində seqmentlərin müəyyən edilməsi üçün zəruri şərait mövcuddur. Ümumilikdə İvanovka kəndinin iqtisadiyyatında həm kənd təsərrüfatı, həm emal və həm də ticarət sahələrinə aid edilə bilən əlahiddə təsərrüfat vahidləri vardır. Əgər bu təsərrüfat vahidlərinin hər birinin ayrı-ayrılıqda gəlirlərini və xərclərini müəyyən etməyə imkan verən informasiyaların formalaşdırılmasına şərait olsa, onda burada ayrı-ayrı seqmentlərin müəyyən edilməsi mümkün olar. Belə bir şəraitdə seqmentlərin müəyyən edilməsi yaşayış məntəqəsinin iqtisadiyyatının səmərəli inkişaf etdirilməsinin vacib şərtlərdən biridir, çünki aqrar sektorun kənd təsərrüfatı, emal və ticarət fəaliyyəti ilə birgə şəkildə məşğul olduğu müəssisələrdə maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli idarə olunmasında bir sıra çətinliklər meydana çıxır. Bunlara xas olan çətinliklərin sırasında maliyyə vəsaitlərinin istiqamətləndirilməsi, maliyyə mənbələrinin formalaşması barədə zəruri informasiyaların əldə edilməsi, gəlir və xərclərin büdcələşdirilməsi və digər bu kimi maliyyə-iqtisad xarakterli məsələlər xüsusi yer tutur. Bu tipli müəssisələrdə sadalanan xarakterə uyğun maliyyə-iqtisad yönümlü problemlərin həll edilməsində seqment uçotunun təşkili mühüm əhəmiyyətə malikdir, çünki müəssisənin hər bir seqmenti üzrə büdcələşdirmə proseslərinin optimallaşdırılması hesabına gəlir və xərclərin səmərəli idarə edilməsi ilk növbədə ayrı-ayrı seqmentlər üzrə müvafiq informasiyaların formalaşdırılması və uçot qaydaları ilə işlənməsindən asılıdır.

***Seqment uçotunun təşkilat quruluşu***

Burada İsmayıllı rayonunun İvanovka kəndinin coğrafi mövqeyi, əhalinin mədəniyyət, yaşayış və təsərrüfat ənənələri, kənd iqtisadiyyatının zaman-zaman formalaşması, inkişaf etdirilməsi və müasir vəziyyətə yetişməsi xüsusiyyətləri göstərir ki, kəndin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və uzunmüddətli davamlı inkişaf meylinin gələcəkdə də davam etdirilməsi üçün İsmayıllı rayonunun İvanovka kəndinin iqtisadiyyatında aşağıda göstərilən əməliyyat seqmentlərinin müəyyən edilməsi və gələcəkdə N.V.Nikitin adına kolxozda burada göstərilən quruluşda seqment uçotunun təşkil edilərək, nəticədə hər bir seqment və alt seqment üzrə seqmentar maliyyə hesabatının işlənməsini məqsədəuyğun hesab edirik:

1-ci seqment: kənd təsərrüfatı istehsalı fəaliyyəti;

A-alt seqmenti: heyvandarlıq məhsullarının istehsalı fəaliyyəti;

B-alt seqmenti: bitkiçilik məhsullarının istehsalı fəaliyyəti;

2-ci seqment: sənaye istehsalı fəaliyyəti;

A-alt seqmenti: emal sənayesi məhsullarının istehsalı fəaliyyəti;

B-alt seqmenti: digər məhsulların istehsalı fəaliyyəti;

3-cü seqment: ticarət və ictimai iaşə fəaliyyəti.

Timsalında tədqiqat aparılan İvanovka kəndinin iqtisadiyyatında burada göstərilən fəaliyyət növlərindən kənar bəzi təsərrüfat əməliyyatları da baş verir ki, bunlar heç bir əməliyyat seqmentinə aid edilmir. Buna misal olaraq, idarə aparatının saxlanmasına çəkilən xərcləri göstərmək olar.

## Nəticə

Bizim fikrimizcə, İsmayıllı rayonunun İvanovka kəndinin iqtisadiyyatı timsalında nəzərdən keçirilmiş aqrar sektorun emal və ticarət müəssisələrində seqmentlərin burada göstərilən prinsiplər üzrə müəyyənləşdirilərək, seqment uçotunun təşkil edilməsi və hər bir seqment üzrə seqmentar maliyyə hesabatının işlənməsi aqrar sektor iqtisadiyyatının dayanıqlığını möhkəmləndirər və maliyyə nəticələrini daha da yaxşılaşdırar.

Beləliklə, aqrar sektorun emal və ticarət müəssisələrində mühasibat uçotu və maliyyə hesabatının əməliyyat seqmentləri üzrə təşkil edilməsi bu sahənin təsərrüfat fəaliyyətinin optimal təşkil edilməsinə, gəlirlərin artırılmasına, xərclərə qənaət edilməsinə, resursların optimal bölüşdürülməsinə və ümumilikdə müəssisənin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə gətirib çıxardacaqdır.

## ƏDƏBİYYAT

1. Kommersiya Təşkilatları üçün 34№-li Milli Mühasibat Uçotu Standartı. "Əməliyyat seqmentləri üzrə". Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 11 səh. 2. http://ismayilli-ih.gov.az/page/125.html 3. Həsən Həsənov. İsmayıllı Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi. Kolxozu kollektivin təsərrüfatı edən insan. "Azərbaycan" qəzeti, 1 may 2016-cı il. 4. İlham Tumas. Azərbaycanın tək kolxozu, erməni fitnəsi, türk paşanın tapşırığı. . Lent.az-13 oktyabr 2012. http://news.lent.az/news/105187 5. Emil Eyyubov. Azərbaycanın koloritli kəndləri: İvanovka və digər molokan kəndləri. Bakı, Azərbaycan Dövlət İnformasiya Agentliyi-Azərtac, 15 mart 2018.

**Характерные особенности сегментарного учета в перерабатывающих и торговых предприятиях аграрного сектора**

**А.А.Адыгезалова**

В статье рассматривается ряд особенностей сегментарного учета в предприятиях переработки и торговли аграрного сектора. Здесь указываются некоторые вопросы определения операционных и географических сегментов, а также делается акцент на то, что в результате организации сегментного бухгалтерского учета и сегментарной финансовой отчетности, повышается доходность и выявится новые источники сокращения расходов, обеспечиваются оптимальное распределение ресурсов между внутрихозяйственными структурными подразделением предприятия и, в целом, повышается эффективность его хозяйственной деятельности.

***Ключевые слова:*** *аграрный сектор, перерабатывающие предприятия, торговые предприятия, сегментный учет, сегментарная отчетность, операционный сегмент, географический сегмент, эффективность*

**Characteristics of segment accounting in processing and trading enterprises of the agrarian sector**

**A.A.Adigozalova**

The article deals with a number of features of segment accounting in agrarian sector processing and trading enterprises. Here are some of the areas where the agrarian sector's focus is on detecting business segments and geographical segments, as part of the segment reporting and segmentation financial reporting, as well as revenue-raising and cost savings, and the optimal allocation of resources between the internal economic structures and, in general, the possibility of achieving an increase in efficiency.

***Key words:*** *agrarian sector, processing enterprises, trading enterprises, segment accounting, segment reporting, operating segment, geographical segment, efficiency*

**aynur_adigozalova.58@mail.ru**

# Сайрус Маккормик — изобретатель жатки



*Отец Сайруса Маккормика в течении 28 лет пытался создать молотилку на конной тяге, но в конечном итоге бросил это занятие, и передал свои чертежи сыну. Сайрус разработал свою первую жатку спустя полтора года, после того как отец передал ему свои наработки, и в 1831 году он начал полевые испытания своего изобретения, а в 1834 — запатентовал его.*

*До 1847 года жатка плохо продавалась, Маккормик смог продать менее 100 машин. Но после переезда в Чикаго и активной маркетинговой политики, его компания стала крупнейшим производитель сельхозтехники в США. Секретом рекламной кампании Маккормика были листовки, в которых описывался принцип работы жатки, ее преимущества, данные с полевых испытаний и отзывы фермеров. Аграрии стали охотнее покупать жатку, ведь они поняли как ее можно отремонтировать.*